**AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASININ QƏRARI**

**№ 25**

**Bakı şəhəri** **10 noyabr 2021-ci il**

**“Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən *diyetik* qida məhsullarına dair sanitariya normaları və qaydaları”nın və “*İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarına dair sanitariya normaları və qaydaları”nın təsdiq edilməsi barədə**

“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019 – 2025-ci illər üçün Dövlət Proqramı”nın “Tədbirlər Planı”nın 10.1.2-ci və 10.6.7-ci yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 2.0.3-cü, 3.0.2-ci və 4.0.1-ci yarımbəndlərini və 5.10 - 5.12-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası (bundan sonra ismin müvafiq hallarında – Agentlik) Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Agentliyin fəaliyyət istiqamətləri üzrə aşağıdakı texniki normativ hüquqi aktlar təsdiq edilsin:

1.1. “Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən *diyetik* qida məhsullarına dair sanitariya normaları və qaydaları” (Əlavə 1);[1]

1.2. “*İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarına dair sanitariya normaları və qaydaları” (Əlavə 2).[2]

**2.** Agentliyin Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 (üç) gün ərzində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

**3.** Kollegiyanın məsul katibi **Asif Əbdüləzimov** bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**4.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentliyin Kollegiyasının 2021-ci il 10 noyabr tarixli 25 nömrəli iclas protokolu.

| | |
|---|---|
| **Kollegiyanın sədri,**<br>**Azərbaycan Respublikası**<br>**Qida Təhlükəsizliyi Agentliyinin sədri** | **Qoşqar Təhməzli** |

| | |
|---|---|
| | Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 10 noyabr 2021-ci il tarixli 25 nömrəli Qərarı ilə təsdiq edilmişdir. |

## *İNSAN ORQANİZMİNDƏ ZƏRƏRLİ AMİLLƏRİN XRONİKİ TƏSİRİ İLƏ ŞƏRTLƏNƏN POZUNTULARIN QARŞISININ ALINMASI MƏQSƏDİLƏ XÜSUSİ QİDA RASİONLARINDA İSTİFADƏ OLUNAN, HƏKİM GÖSTƏRİŞİ İLƏ QƏBUL EDİLƏN, TİBBİ MƏQSƏDLƏR ÜÇÜN HAZIRLANAN* QİDA MƏHSULLARINA DAİR SANİTARİYA NORMALARI VƏ QAYDALARI[11]

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar *insan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının (bundan sonra – tibbi məqsədlər üçün hazırlanan qida məhsulları)* minimum keyfiyyətinə və təhlükəsizliyinə dair tələbləri müəyyən edir.[12]

1.2. Bu Qaydalar Avropa İttifaqının 25 sentyabr 2015-ci il tarixli 2016/128 nömrəli (Commıssıon Delegated Regulatıon (EU) 2016/128 of 25 September 2015) və 12 iyun 2013 tarixli 609/2013 nömrəli (Regulatıon (EU) No 609/2013 of the European Parlıament And of the Councıl of 12 June 2013) sənədləri əsasında hazırlanmışdır.

1.3. *Tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* qida məhsulları bu Qaydaların tələblərinə cavab verdiyi təqdirdə onların dövriyyəsinə yol verilir.[13]

1.4. *Tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* qida məhsulları pərakəndə satış yerlərinə yalnız qablaşdırılmış formada yerləşdirilə bilər.

*1.5. Tibbi məqsədlər üçün hazırlanan qida məhsulları dedikdə insan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən xüsusi təyinatlı qida məhsulları nəzərdə tutulur.*[14]

1.6. *Tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* qida məhsulları aşağıdakı 3 növə bölünür:

1.6.1. istifadə təlimatına uyğun olaraq istehlak olunan zaman nəzərdə tutulduğu şəxslər üçün yeganə qidalanma mənbəyi rolunu oynaya bilən, tərkibi hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyətinə uyğunlaşdırılmamış, tamtərkibli qida məhsulu;

1.6.2. istifadə təlimatına uyğun olaraq istehlak olunan zaman nəzərdə tutulduğu şəxslər üçün yeganə qidalanma mənbəyi rolunu oynaya bilən, tərkibi hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyətinə uyğunlaşdırılmış, tamtərkibli qida məhsulu;

1.6.3. nəzərdə tutulduğu şəxslər üçün yeganə qidalanma mənbəyi rolunu oynamayan, tərkibi hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyətinə uyğunlaşdırılmış və ya uyğunlaşdırılmamış, tamtərkibli olmayan qida məhsulu.

1.7. Bu Qaydaların 1.6.1-ci və 1.6.2.-ci yarımbəndlərində göstərilən qida məhsulları hər hansı bir qida qəbulunu əvəzləyə və ya ona əlavə kimi istifadə edilə bilər.

## 2. Tərkibə dair tələblər

2.1. *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarına* bu Qaydaların 1 nömrəli əlavəsində nəzərdə tutulmuş maddələr qrupu üzrə yalnız həmin əlavədə göstərilən maddələr əlavə edilə bilər.[15]

2.2. Körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* tərkibi aşağıdakı tələblərə uyğun olmalıdır:

2.2.1. bu Qaydaların 1.6.1-ci yarımbəndində göstərilən, körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* bu Qaydaların 2 nömrəli əlavəsində göstərilən maddələri (həmin əlavədə nəzərdə tutulmuş miqdarlarda) ehtiva etməlidir;

2.2.2. hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyəti baxımından bir və ya bir neçə maddənin dəyişdirilməsi tələb olunduğu hallar istisna olmaqla, bu Qaydaların 1.6.2-ci yarımbəndində göstərilən, körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* bu Qaydaların 2 nömrəli əlavəsində göstərilən maddələri (həmin əlavədə nəzərdə tutulmuş miqdarlarda) ehtiva etməlidir;

2.2.3. hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyəti baxımından maddənin miqdarının dəyişdirilməsi tələb olunduğu hallar istisna olmaqla, bu Qaydaların 1.6.3-

cü yarımbəndində göstərilən, körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* tərkibindəki vitamin və mineralların miqdarları bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun olmalıdır.

2.3. Körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* istisna olmaqla, digər *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* tərkibi aşağıdakı tələblərə uyğun olmalıdır:

2.3.1. körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* istisna olmaqla, bu Qaydaların 1.6.1-ci yarımbəndində göstərilən *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* bu Qaydaların 3 nömrəli əlavəsində göstərilən maddələri (həmin əlavədə nəzərdə tutulmuş miqdarlarda) ehtiva etməlidir;

2.3.2. hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyəti baxımından bir və ya bir neçə maddənin dəyişdirilməsi tələb olunduğu hallar və körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* istisna olmaqla, bu Qaydaların 1.6.2-ci yarımbəndində göstərilən *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* bu Qaydaların 3 nömrəli əlavəsində göstərilən maddələri (həmin əlavədə nəzərdə tutulmuş miqdarlarda) ehtiva etməlidir;

2.3.3. hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyəti baxımından maddənin miqdarının dəyişdirilməsi tələb olunduğu hallar və körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları* istisna olmaqla, bu Qaydaların 1.6.3-cü yarımbəndində göstərilən *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* tərkibindəki vitamin və mineralların miqdarları bu Qaydaların 3 nömrəli əlavəsinə uyğun olmalıdır.

## 3. Körpələr və erkən yaşlı uşaqlar üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarında* bitki mühafizə vasitələrinin təsiredici maddələrinə dair tələblər

3.1. Körpələr və erkən yaşlı uşaqlar üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* tərkibində olan bitki mühafizə vasitələrinin təsiredici maddələrinin qalıqları bu Qaydaların 3.2-ci və 3.3-cü bəndləri nəzərə alınmaqla, 0,01 mq/kq-dan çox olmamalıdır.

3.2. Körpələr və erkən yaşlı uşaqlar üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* tərkibində istifadə olunan bu Qaydaların 4 nömrəli əlavəsində göstərilən təsiredici maddələrin maksimum qalıq miqdarları həmin cədvələ uyğun olmalıdır.

3.3. Körpələr və erkən yaşlı uşaqlar üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* istehsalında, tərkibində bu Qaydaların 5 nömrəli əlavəsində qeyd olunmuş təsiredici maddələr olan bitki mühafizə vasitələrinin istifadə olunmadığı (bitki mühafizə vasitələrinin istifadə olunub-olunmamasını müəyyən edən

zaman nəticə 0,003 mq/kq-dan az olarsa, həmin bitki mühafizə vasitəsindən istifadə olunmadığı hesab edilir) məhsullardan istifadə edilməlidir.

## 4. Etiketlənməyə dair tələblər

4.1. *tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının* etiketində *"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsi* nəzərə alınmaqla, əlavə olaraq aşağıda göstərilən məlumatlar öz əksini tapmalıdır:[16]

4.1.1. "*Tibbi məqsədlər üçün hazırlanan qida* qida məhsulu" ifadəsi;[17]

4.1.2. məhsulun həkim nəzarəti altında istifadə edilməli olduğuna dair məlumat;

4.1.3. məhsulun yeganə qidalanma mənbəyi kimi istifadə olunmasının mümkünlüyünə dair məlumat;

4.1.4. məhsul istehlak xüsusiyyətlərinə əsasən müəyyən yaş qrupuna aid edildiyi halda, buna dair məlumat;

4.1.5. hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyəti üçün nəzərdə tutulmuş məhsulun sağlam şəxslər tərəfindən istehlakı sağlamlıq üçün təhlükə yaratdığı halda, buna dair məlumat;

4.1.6. məhsulun aid edildiyi xəstəlik və ya sağlamlıq vəziyyətinə dair məlumat (məsələn: "erkən alzheimer xəstəliyi zamanı *tibbi məqsədlər üçün hazırlanan* qida məhsulu");[18]

4.1.7. mövcud olduğu halda, məhsulun istifadəsi zamanı ehtiyat tədbirləri və istifadəsinə əks göstərişlər;

4.1.8. məhsulun parenteral (mədə-bağırsaq traktından kənar) yolla istifadə edilməməsinə dair xəbərdarlıq;

4.1.9. məhsulun nəzərdə tutulduğu hər hansı bir xəstəlik və ya sağlamlıq vəziyyətinə dair onu faydalı edən xüsusiyyətləri, xüsusilə, onun emal üsulları və tərkib xüsusiyyətlərindən asılı olaraq, məhsulda artırılmış, azaldılmış və ya çıxarılmış qida maddələrinə dair məlumatlar;

4.1.10. məhsulun istehlaka hazırlanmasına, istehlakına, məhsulun qablaşdırması açıldıqdan sonra onun *yararlılıq* müddətinə və şəraitinə dair göstərişlər;[19]

4.1.11. məhsulun tərkibində olan və bu Qaydaların 2 və 3 nömrəli əlavələrində göstərilən hər bir maddənin miqdarı;

4.1.12. məhsulun tərkibində olan zülallar, karbohidratlar, yağlar və onların komponentlərinin miqdarı;

4.1.13. maye formasında olan və ya istifadə təlimatına uyğun hazırlanaraq maye halına keçən məhsulların osmolallığı (1 kq məhlulda həll olunan hissəciklərin sayı) və ya osmolyarlığı (1 litr məhlulda həll olunan hissəciklərin sayı) haqqında məlumat;

4.1.14. məhsulun tərkibinə daxil olan zülal və (və ya) zülal hidrolizatlarının mənşəyi və quruluşu haqqında məlumat;

4.2. Bu Qaydaların 4.1.2-4.1.5-ci yarımbəndlərindəki məlumatlar “Vacib” və ya “Diqqət” başlığı altında yazılmalıdır.

4.3. Natriumun miqdarı digər minerallarla yanaşı qeyd olunmalıdır. Məhsulun tərkibinə daxil olan duzun miqdarı qeyd olunan hissədə təkrarlana bilər və bu zaman “Duz: X q (Y q natrium olmaqla)” şəklində qeyd olunur.

| | |
|---|---|
| | *“İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarına dair sanitariya normaları və qaydaları”nın<br>**1 nömrəli əlavəsi** |

| ***Tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarının tərkibinə daxil edilməsinə icazə verilən maddələrin siyahısı**[20] | | |
|---|---|---|
| **Maddələr qrupu** | **Maddələr alt qrupu** | **Maddələr** |
| Vitaminlər<br>*Vitamins* | Vitamin A<br>*Vitamin A* | Retinol<br>*retinol* |
| | | Retinol asetat<br>*Retinyl acetate* |
| | | Retinol palmiat<br>*Retinyl palmitate* |
| | | Beta-karotin<br>*Beta-carotene* |
| | Vitamin D<br>*Vitamin D* | Erqokalsiferol<br>*ergocalciferol* |
| | | Xolekalsiferol<br>*cholecalciferol* |
| | | D-alfa tokoferol |

| | | |
|---|---|---|
| | Vitamin E<br>*Vitamin E* | *d-alpha tocopherol* |
| | | DL-alfa tokoferol<br>*dl-alpha tocopherol* |
| | | D-alfa tokoferil asetat<br>*D-alpha tocopheryl acetate* |
| | | DL-alfa tokoferil asetat<br>*DL-alpha tocopheryl acetate* |
| | | D-alfa-tokoferil suksinat turşusu<br>*D-alpha-tocopheryl acid succinate* |
| | | D-alfa-tokoferil polietilen qlikol-1000 suksinat<br>*D-alpha-tocopheryl polyethylene glycol-1000 succinate (TPGS)* |
| | Vitamin K<br>*Vitamin K* | Filloxinon (fitomenadion)<br>*phylloquinone (phytomenadione)* |
| | | Menaxinon<br>*Menaquinone* |
| | Vitamin C<br>*Vitamin C* | L-askorbin turşusu<br>*L-ascorbic acid* |
| | | Natrium-L-askorbat<br>*sodium-L-ascorbate* |
| | | Kalsium-L-askorbat<br>*calcium-L-ascorbate* |
| | | Kalium-L-askorbat<br>*potassium-L-ascorbate* |
| | | L-askorbil 6-palmitat<br>*L-ascorbyl 6-palmitate* |
| | Tiamin<br>*Thiamin* | Tiamin hidroxlorid<br>*thiamin hydrochloride* |
| | | Tiamin mononitrate<br>*thiamin mononitrate* |
| | | Riboflavin<br>*riboflavin* |

| | | |
|---|---|---|
| | Riboflavin *Riboflavin* | Riboflavin 5-fosfat, natrium *riboflavin 5′-phosphate, sodium* |
| | Niasin *Niacin* | Nikotin turşusu *nicotinic acid* |
| | | Nikotinamid *nicotinamide* |
| | Vitamin $B_6$ *Vitamin $B_6$* | Piridoksin hidroxlorid *pyridoxine hydrochloride* |
| | | Piridoksin 5-fosfat *pyridoxine 5′-phosphate* |
| | | Piridoksin dipalmit *pyridoxine dipalmitate* |
| | Fol turşusu *Folate* | Fol turşusu *folic acid (pteroylmonoglutamic acid)* |
| | | Kalsium-L-metilfolat *calcium-L-methylfolate* |
| | Vitamin $B_{12}$ *Vitamin* $B_{12}$ | Sianokobalamin *cyanocobalamin* |
| | | Hidroksokobalamin *hydroxocobalamin* |
| | Biotin *Biotin* | D-biotin *D-biotin* |
| | Pantoten turşusu *Pantothenic Acid* | Kalsium D-pantotenat *D-pantothenate, calcium* |
| | | Natrium D-pantotenat, *D-pantothenate, calcium* |
| | | Dekspantenol *dexpanthenol* |
| Minerallar *Minerals* | Kalium *Potassium* | Kalium bikarbonat *potassium bicarbonate* |
| | | Kalium karbonat *potassium carbonate* |

| | | |
|---|---|---|
| | | Kalium xlorid<br>*potassium chloride* |
| | | Kalium sitrat<br>*potassium citrate* |
| | | Kalium qlukonat<br>*potassium gluconate* |
| | | Kalium qliserofosfat<br>*potassium glycerophosphate* |
| | | Kalium laktat<br>*potassium lactate* |
| | | Kalium hidroksid<br>*potassium hydroxide* |
| | | Ortofosfor turşusunun kalium duzları<br>*potassium salts of orthophosphoric acid* |
| | | Maqnezium kalium sitrat<br>*magnesium potassium citrate* |
| | Kalsium<br>*Calcium* | Kalsium karbonat<br>*calcium carbonate* |
| | | Kalsium xlorid<br>*calcium chloride* |
| | | Limon turşusunun kalsium duzları<br>*calcium salts of citric acid* |
| | | Kalsium qlukonat<br>*calcium gluconate* |
| | | Kalsium qliserofosfat<br>*calcium glycerophosphate* |
| | | Kalsium laktat<br>*calcium lactate* |
| | | Ortofosfor turşusunun kalsium duzları<br>*calcium salts of orthophosphoric acid* |
| | | Kalsium xlorid<br>*calcium hydroxide* |

| | | |
|---|---|---|
| | | Kalsium oksid<br>*calcium oxide* |
| | | Kalsium sulfat<br>*calcium sulphate* |
| | | Kalsium biqlisinat<br>*calcium bisglycinate* |
| | | Kalsium sitrat malat<br>*calcium citrate malate* |
| | | Kalsium malat<br>*calcium malate* |
| | | Kalsium L-pidolat<br>*calcium L-pidolate* |
| | Maqnezium<br>*Magnesium* | Maqnezium-asetat<br>*magnesium acetate* |
| | | Maqnezium-karbonat<br>*magnesium carbonate* |
| | | Maqnezium-xlorid<br>*magnesium chloride* |
| | | Limon turşusunun maqnezium duzları<br>*magnesium salts of citric acid* |
| | | Maqnezium qlukonat<br>*magnesium gluconate* |
| | | Maqnezium qliserofosfat<br>*magnesium glycerophosphate* |
| | | Ortofosfor turşusunun maqnezium duzları<br>*magnesium salts of orthophosphoric acid* |
| | | Maqnezium laktat<br>*magnesium lactate* |
| | | Maqnezium hidroksid<br>*magnesium hydroxide* |
| | | Maqnezium oksid<br>*magnesium oxide* |

| | | |
|---|---|---|
| | | Maqnezium sulfat<br>*magnesium sulphate* |
| | | Maqnezium L-aspartat<br>*magnesium L-aspartate* |
| | | Maqnezium bisqlisinat<br>*magnesium bisglycinate* |
| | | Maqnezium L-pidolat<br>*magnesium L-pidolate* |
| | | Maqnezium kalium sitrat<br>*magnesium potassium citrate* |
| | Dəmir<br>*İron* | Dəmir karbonat<br>*ferrous carbonate* |
| | | Dəmir sitrat<br>*ferrous citrate* |
| | | Dəmir ammonium sitrat<br>*ferric ammonium citrate* |
| | | Dəmir qlukonat<br>*ferrous gluconate* |
| | | Dəmir fumarat<br>*ferrous fumarate* |
| | | Dəmir natrium difosfat<br>*ferric sodium diphosphate* |
| | | Dəmir laktat<br>*ferrous lactate* |
| | | Dəmir sulfat<br>*ferrous sulphate* |
| | | Dəmir ammonium fosfat<br>*ferrous ammonium phosphate* |
| | | Trilon B dəmir duzu<br>*ferric sodium EDTA* |
| | | Dəmir difosfat (ferrit pirofosfat)<br>*ferric diphosphate (ferric pyrophosphate)* |

| | | |
|---|---|---|
| | | Dəmir saxarat<br>*ferric saccharate* |
| | | Elementar dəmir (karbonil + elektrolit + hidrogen azalmışdır)<br>*elemental iron (carbonyl + electrolytic + hydrogen reduced)* |
| | | Dəmir bisqlukonat<br>*ferrous bisglycinate* |
| | | Dəmir L-pidolat<br>*ferrous L-pidolate* |
| | Sink<br>*Zinc* | Sink asetatSink asetat<br>*zinc acetate* |
| | | Sink xlorid<br>*zinc chloride* |
| | | Sink sitrat<br>*zinc citrate* |
| | | Sink qlukonat<br>*zinc gluconate* |
| | | Sink laktat<br>*zinc lactate* |
| | | Sink oksid<br>*zinc oxide* |
| | | Sink karbonat<br>*zinc carbonate* |
| | | Sink sulfat<br>*zinc sulphate* |
| | | Sink bisqlukonat<br>*zinc bisglycinate* |
| | Mis<br>*Copper* | Mis karbonat<br>*cupric carbonate* |
| | | Mis sitrat<br>*cupric citrate* |
| | | Mis qlukonat<br>*cupric gluconate* |

| | | |
|---|---|---|
| | | Mis sulfat<br>*cupric sulphate* |
| | | Mis lizin kompleksi<br>*copper lysine complex* |
| | Manqan<br>*Manganese* | Manqan karbonat<br>*manganese carbonate* |
| | | Manqan xlorid<br>*manganese chloride* |
| | | Manqan sitrat<br>*manganese citrate* |
| | | Manqan qlukonat<br>*manganese gluconate* |
| | | Manqan qliserofosfat<br>*manganese glycerophosphate* |
| | | Manqan sulfat<br>*manganese sulphate* |
| | Flüor<br>*Fluoride* | Kalium flüorid<br>*potassium fluoride* |
| | | Natrium flüorid<br>*sodium fluoride* |
| | Selen<br>*Selenium* | Natrium selenat<br>*sodium selenate* |
| | | Natrium hidrogen selenit<br>*sodium hydrogen selenite* |
| | | Natrium selenit<br>*sodium selenite* |
| | | Selenlə zənginləşdirilmiş maya<br>*selenium enriched yeast* |
| | Xrom<br>*Chromium* | Xrom (III) xlorid və onun heksahidratı<br>*chromium (III) chloride and its hexahydrate* |

| | | |
|---|---|---|
| | | Xrom (III) sulfat və onun heksahidratı<br>*chromium (III) sulphate and its hexahydrate* |
| | | Xrom pikolinat<br>*chromium picolinate* |
| | Molibdenium<br>*Molybdenum* | Ammonium molibdat<br>*ammonium molybdate* |
| | | Natrium molibdat<br>*sodium molybdate* |
| | Yod<br>*Iodine* | Kalium yodid<br>*potassium iodide* |
| | | Kalium yodat<br>*potassium iodate* |
| | | Natrium yodid<br>*sodium iodide* |
| | | Natrium yodat<br>*sodium iodate* |
| | Natrium<br>*Sodium* | Natrium bikarbonat<br>*sodium bicarbonate* |
| | | Natrium karbonat<br>*sodium carbonate* |
| | | Natrium xlorid<br>*sodium chloride* |
| | | Natrium sitrat<br>*sodium citrate* |
| | | Natrium qlukonat<br>*sodium gluconate* |
| | | Natrium laktat<br>*sodium lactate* |
| | | Natrium hidroxlorid<br>*sodium hydroxide* |

| | | |
|---|---|---|
| | | Ortofosfor turşusunun natrium duzları<br>*sodium salts of orthophosphoric acid* |
| | Bor<br>*Boron* | Natrium borat<br>*sodium borate* |
| | | Bor turşusu<br>*boric acid* |
| Aminturşular<br>*Amin acids* | | L-alanin<br>*L-alanine* |
| | | L-arginin<br>*L-arginine* |
| | | L-aspartin turşusu<br>*L-aspartic acid* |
| | | L-sitrulin<br>*L-citrulline* |
| | | L-sistein<br>*L-cysteine* |
| | | Sistin<br>*Cystine* |
| | | L-histidin<br>*L-histidine* |
| | | L-qlutamin turşusu<br>*L-glutamic acid* |
| | | L-qlutamin<br>*L-glutamine* |
| | | Qlisin<br>*glycine* |
| | | L-izoleytin<br>*L-isoleucine* |
| | | L-leytin<br>*L-leucine* |

| | | |
|---|---|---|
| | | L-lizin<br>*L-lysine* |
| | | L-lizin asetat<br>*L-lysine acetate* |
| | | L-metionin<br>*L-methionine* |
| | | L-ornitin<br>*L-ornithine* |
| | | L-fenilalanin<br>*L-phenylalanine* |
| | | L-prolin<br>*L-proline* |
| | | L-sreonin<br>*L-threonine* |
| | | L-triptofan<br>*L-tryptophan* |
| | | L-tirozin<br>*L-tyrosine* |
| | | L-valin<br>*L-valine* |
| | | L-serin<br>*L-serine* |
| | | L-arginin-L-aspartat<br>*L-arginine-L-aspartate* |
| | | L-lizin-L-aspartat<br>*L-lysine-L-aspartate* |
| | | L-lizin-L-qlutamat<br>*L-lysine-L-glutamate* |
| | | N-asetil-L-sistein<br>*N-acetyl-L-cysteine* |

| | | |
|---|---|---|
| | | N-asetil-L-metionin<br>*N-acetyl-L-methionine*<br>(1 yaşdan yuxarı şəxslər üçün nəzərdə tutulmuş məhsullarda) |
| Karnitin və taurin<br>*Carnitine and taurine* | | L-karnitin<br>*L-carnitine* |
| | | L-karnitin hidrogen xlorid<br>*L-carnitine hydrochloride* |
| | | Taurine<br>*taurine* |
| | | L-karnitin-L-tartrat<br>*L-carnitine-L-tartrate* |
| Nukleotidlər<br>*Nucleotides* | | Adenozin 5-fostat turşusu<br>*adenosine 5′-phosphoric acid (AMP)* |
| | | Adenozin fosfatın natrium duzları<br>*sodium salts of AMP* |
| | | Sitidin 5-monofosfor turşusu<br>*cytidine 5′-monophosphoric acid (CMP)* |
| | | Sitidin 5-monofosfor turşusunun natrium duzu<br>*sodium salts of CMP* |
| | | Quanozin 5-fosfor turşusu<br>*guanosine 5′-phosphoric acid (GMP)* |
| | | Quanozin 5-fosfor turşusunun natrium duzu<br>*sodium salts of GMP* |
| | | İnozin 5-fosfor turşusu<br>*inosine 5′-phosphoric acid (IMP)* |
| | | İnozin 5-fosfor turşusunun natrium duzu<br>*sodium salts of IMP* |
| | | Uridin 5-fosfor turşusu<br>*uridine 5′-phosphoric acid (UMP)* |

| | | |
|---|---|---|
| | | Uridin 5-fosfor turşusunun natrium duzu *Sodium salts of UMP* |
| Xolin və inositol *Choline and inositol* | | Xolin *choline* |
| | | Xolin xlorid *choline chloride* |
| | | Xolin bitartarat *choline bitartrate* |
| | | Xolin sitrat *choline citrate* |
| | | İnozitol *inositol* |

| | |
|---|---|
| | *"İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarına dair sanitariya normaları və qaydaları"nın **2 nömrəli əlavəsi** |

**Körpələr üçün nəzərdə tutulan *tibbi məqsədlər üçün hazırlanan qida məhsulları üzrə* vitamin və mineralların miqdarı**[21]

| | Hər 100 kC üçün | | Hər 100 kkal üçün | |
|---|---|---|---|---|
| | **Minimum** | **Maksimum** | **Minimum** | **Maksimum** |
| **Vitaminlər** | | | | |
| A Vitamini (mkq-RE)[1] | 16,7 | 43 | 70 | 180 |
| D Vitamini (mkq) | 0,48 | 0,72 | 2 | 3 |
| K Vitamini (mkq) | 0,24 | 6 | 1 | 25 |
| C Vitamini (mq) | 0,96 | 7,2 | 4 | 30 |

| | | | | |
|---|---|---|---|---|
| Tiamin (mkq) | 9,6 | 72 | 40 | 300 |
| Riboflavin (mkq) | 14,3 | 107 | 60 | 450 |
| $B_6$ Vitamini (mkq) | 4,8 | 72 | 20 | 300 |
| Niasin (mq)[2] | 0,1 | 0,72 | 0,4 | 3 |
| Fol turşusu (mkq-DFE)[3] | 3,6 | 11,4 | 15 | 47,6 |
| $B_{12}$ Vitamini (mkq) | 0,02 | 0,12 | 0,1 | 0,5 |
| Pantoten turşusu (mq) | 0,1 | 0,48 | 0,4 | 2 |
| Biotin (mkq) | 0,24 | 4,8 | 1 | 20 |
| E Vitamini ($\alpha$-tokoferol) (mq)[4] | 0,14 | 1,2 | 0,6 | 5 |
| **Minerallar** | | | | |
| Natrium (mq) | 6 | 14,3 | 25 | 60 |
| Xlor (mq) | 14,3 | 38,2 | 60 | 160 |
| Kalium (mq) | 19,1 | 38,2 | 80 | 160 |
| Kalsium (mq)[5] | 12 | 60 | 50 | 250 |
| Fosfor (mq)[6] | 6 | 24 | 25 | 100 |
| Magnezium (mq) | 1,2 | 3,6 | 5 | 15 |
| Dəmir (mq) | 0,07 | 0,6 | 0,3 | 2,5 |
| Sink (mq) | 0,12 | 0,6 | 0,5 | 2,4 |
| Mis (mkq) | 14,3 | 29 | 60 | 120 |
| Yod (mkq) | 3,6 | 8,4 | 15 | 35 |
| Selen (mkq) | 0,72 | 2 | 3 | 8,6 |
| Manqan (mkq) | 0,24 | 24 | 1 | 100 |
| Xrom (mkq) | — | 2,4 | — | 10 |
| Molibden (mkq) | — | 3,3 | — | 14 |
| Flüor (mkq) | — | 47,8 | — | 200 |

1- Preformlaşdırılmış A vitamini; RE= retinolun bütün trans ekvivalentləri.
2- Preformlaşdırılmış niasin.
3- Fol turşusunun ekvivalent payı: 1 mkq DFE = qida məhsulunda 1 mkq fol turşusu = *tibbi məqsədlər üçün hazırlanan* qida məhsulunda 0,6 mkq fol turşusu.[22]
4- RRR- $\alpha$-tokoferolun vitamin E aktivliyi əsasında.
5- Kalsium: fosfor molyar nisbəti 1-dən az və 2-dən çox olmamalıdır.
6- Ümumi fosfor.

| | |
|---|---|
| | *"İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarına dair sanitariya normaları və qaydaları"nın<br>**3 nömrəli əlavəsi** |

**Körpələr üçün nəzərdə tutulmuş *tibbi məqsədlər üçün hazırlanan* qida məhsulları istisna olmaqla, digər *tibbi məqsədlər üçün hazırlanan* qida məhsulları üçün vitamin və mineralların miqdarı**

| | **Hər 100 kC üçün** | | **Hər 100 kkal üçün** | |
|---|---|---|---|---|
| | **Minimum** | **Maksimum** | **Minimum** | **Maksimum** |
| **Vitaminlər** | | | | |
| A Vitamini (mkq-RE) | 8,4 | 43 | 35 | 180 |
| D Vitamini (mkq) | 0,12 | 0,65/0,75 (1) | 0,5 | 2,5/3 (1) |
| K Vitamini (mkq) | 0,85 | 5 | 3,5 | 20 |
| C Vitamini (mq) | 0,54 | 5,25 | 2,25 | 22 |
| Tiamin (mq) | 0,015 | 0,12 | 0,06 | 0,5 |
| Riboflavin (mq) | 0,02 | 0,12 | 0,08 | 0,5 |
| $B_6$ Vitamini (mq) | 0,02 | 0,12 | 0,08 | 0,5 |
| Niasin (mq NE) | 0,22 | 0,75 | 0,9 | 3 |
| Fol Turşusu (mkq) | 2,5 | 12,5 | 10 | 50 |
| $B_{12}$ Vitamini (mkq) | 0,017 | 0,17 | 0,07 | 0,7 |
| Pantoten turşusu (mq) | 0,035 | 0,35 | 0,15 | 1,5 |
| Biotin (mkq) | 0,18 | 1,8 | 0,75 | 7,5 |
| E Vitamini (mq $\alpha$-TE) | 0,5/q hər 100 KC üçün 0,1 mq-dan az olmamaq şərtilə linol turşusu şəklində ifadə olunmuş polidoymuş yağ turşuları | 0,75 | 0,5/q hər 100 KC üçün 0,5 mq-dan az olmamaq şərtilə linol turşusu şəklində ifadə olunmuş | 3 |

| | | | | |
|---|---|---|---|---|
| | | | polidoymuş yağ turşuları | |
| **Minerallar** | | | | |
| Natrium (mq) | 7,2 | 42 | 30 | 175 |
| Xlor (mq) | 7,2 | 42 | 30 | 175 |
| Kalium (mq) | 19 | 70 | 80 | 295 |
| Kalsium (mq) | 8,4/12 | 42/60 (1) | 35/50 (1) | 175/250 (1) |
| Fosfor (mq) | 7,2 | 19 | 30 | 80 |
| Maqnezium (mq) | 1,8 | 6 | 7,5 | 25 |
| Dəmir (mq) | 0,12 | 0,5 | 0,5 | 2 |
| Sink (mq) | 0,12 | 0,36 | 0,5 | 1,5 |
| Mis (mkq) | 15 | 125 | 60 | 500 |
| Yod (mkq) | 1,55 | 8,4 | 6,5 | 35 |
| Selen (mkq) | 0,6 | 2,5 | 2,5 | 10 |
| Manqan (mq) | 0,012 | 0,12 | 0,05 | 0,5 |
| Xrom (mkq) | 0,3 | 3,6 | 1,25 | 15 |
| Molibden (mkq) | 0,84 | 4,3 | 3,5 | 18 |
| Flüor (mq) | — | 0,05 | — | 0,2 |
| (1) 1-10 yaşlı uşaqlar üçün nəzərdə tutulmuş qida məhsulları üçün | | | | |

| | |
|---|---|
| | *“İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarına dair sanitariya normaları və qaydaları”nın<br>**4 nömrəli əlavəsi** |

**Bitki mühafizə vasitələrinin təsiredici maddələrinin maksimum qalıq miqdarları**

| **Maddənin kimyəvi adı** | **Maksimum qalıq miqdarı (mq/kq)** |
|---|---|

| | |
|---|---|
| Cadusafos (Cadusafos) | 0,006 |
| S-metil demeton / S-metil sulfon demeton / metil- oksidemeton (s-metil demeton şəklində ifadə olunmuş ayrılıqda və ya birləşmə formasında) (Demeton-S-methyl/demeton-S-methyl sulfone/ oxydemeton-methyl) | 0,006 |
| Etoprofos (Ethoprophos) | 0,008 |
| Fipronil (fipronil şəklində ifadə olunmuş fipronil və desulfinil-fipronilin cəmi)<br>(Fipronil (fipronil, fipronil-desulfinyl, fipronil) | 0,004 |
| Propineb/propilenetiourea (Propineb və propilenetioureanın cəmi) (Propineb/propylenethiourea (propineb, propylenethiourea)) | 0,006 |

| | |
|---|---|
| | *"İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan* qida məhsullarına dair sanitariya normaları və qaydaları"nın<br>**5 nömrəli əlavəsi** |

**Bitki mühafizə vasitələrində istifadəsi qadağan edilən təsiredici maddələrin siyahısı**

**Maddənin kimyəvi adı**

**1.** Aldrin və dieldrin, dieldrin şəklində ifadə olunmuş (Aldrin, dieldrin)

**2.** Disulfoton (disulfoton şəklində ifadə olunmuş disulfoton, disulfoton sulfoksid və disulfotona sulfonun cəmi) (Disulfoton)

**3.** Endrin (Endrin)

**4.** Fensulfotion ( fensulfotion şəklində ifadə olunmuş fensulfotion, onun oksigenli analoqu və onların sulfonlarının cəmi) (Fensulfothion)

**5.** Trifeniltin kationu kimi ifadə olunan fentin (Fentin)

**6.** Haloksifop (haloksifop şəklində ifadə olunmuş haloksifop, konyuqatları da daxil olmaqla onun duzları və mürəkkəb efirləri) (Haloxyfop)

**7.** Heptaxlor kimi ifadə olunmuş heptaxlor epoksid və trans-heptaxlor (Heptachlor, trans-heptachlor)

**8.** Heksaxlorbenzin (Hexachlorobenzene)

**9.** Nitrofen (Nitrofen)

**10.** Ometoat (Omethoate)

**11.** Terbufos (terbufos kimi ifadə olunan terbufos, onun sulfoksid və sulfonunun cəmi) (Terbufos)

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 iyun 2023-cü il tarixli **35** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] *PDCAAS – Zülaldakı aminturşuların mənimsənilmə əmsalı. PDCAAS hesablanarkən bu Qaydaların 3 nömrəli əlavəsində göstərilən miqdarlar nəzərə alınmalıdır.*

[2] Retinol ekvivalenti

[3] RRR $\alpha$ tokoferolun vitamin E aktivliyi

[4] Niasin ekvivalenti

[5] Fol turşusunun pəhriz ekvivalenti (DFE): 1mq DFE = 1 mq qida ilə mənimsənilən folat = 0,6 mq *Diyetik* **qida məhsulları** ilə mənimsənilən fol turşusu

[1] 24 iyun 2023-cü il tarixli **35** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə adında və 1.1-ci bəndində "**edilən**" sözündən sonra "**diyetik**" sözü əlavə edilmişdir.

[2] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə adında və 1.2-ci bəndində "**Pəhriz**" sözü "**İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan**" sözləri ilə əvəz edilmişdir.

[3] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n adında və 1.1-ci bəndində "**edilən**" sözündən sonra "**diyetik**" sözü əlavə edilmişdir.

[4] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 1.1-ci bəndində "**bədən kütləsini azaldan**" sözləri "**diyetik**" sözü ilə əvəz edilmişdir.

[5] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 1.3-cü, 1.4-cü, 2.1- 2.3-cü, 2.5- 2.11-ci, 3.1-ci, 3.2-ci bəndlərdə "**bədən kütləsini azaldan**" sözləri "**diyetik**" sözü ilə əvəz edilmişdir.

[6] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 2.3-cü bəndin (PDCAAS[1]) nömrəli istinadında "**2 nömrəli əlavəsində**" sözləri "**3 nömrəli əlavəsində**" sözləri ilə əvəz edilmişdir.

[7] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 3.1-ci bənddə "**Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsi**" sözləri **"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsi**" sözləri ilə əvəz olunmuşdur.

[8] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 3.1.1-ci yarımbənddə "**Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən**" sözləri "**Diyetik**" sözü ilə əvəz olunmuşdur.

[9] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 1 nömrəli əlavəsi – "Bədən kütləsini azaldan qida məhsullarının tərkibinə daxil edilən maddələrin Siyahısı"nın, 2 nömrəli əlavəsi – "*Bədən kütləsini azaldan qida məhsullarından alınan vitamin və mineralların gündəlik norması*"nın adında və 3 nömrəli əlavəsi – "*Bədən kütləsini azaldan qida məhsullarında əvəzolunmayan aminturşuların miqdarı"nın* adında "**Bədən kütləsini azaldan**" sözləri "**Diyetik**" sözü ilə əvəz olunmuşdur.

[10] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 2 nömrəli əlavəsi – "Bədən kütləsini azaldan qida məhsullarından alınan vitamin və mineralların gündəlik norması"nın 10-cu sətrində Folat (µq DFE)[5]-nin qeydində "**gündəlik qida rasionunun tam dəyişdirilməsini təmin edən, bədən kütləsinin azaldılması baxımından enerjinin məhdudlaşdırılması üçün istifadə edilən**" sözləri "**Diyetik**" sözü ilə əvəz edilmişdir.

[11] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n adında "**Pəhriz**" sözü "**İnsan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan**" sözləri ilə əvəz edilmişdir.

[12] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 1.1-ci bənddə "**pəhriz qida məhsullarının**" sözləri "**insan orqanizmində zərərli amillərin xroniki təsiri ilə şərtlənən pozuntuların qarşısının alınması məqsədilə xüsusi qida rasionlarında istifadə olunan, həkim göstərişi ilə qəbul edilən, tibbi məqsədlər üçün hazırlanan qida məhsullarının (bundan sonra – tibbi məqsədlər üçün hazırlanan qida məhsulları)**" sözləri ilə əvəz edilmişdir.

[13] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 1.3-cü, 1.4-cü, 1.6-cı bəndlərində "**Pəhriz**" sözü "**Tibbi məqsədlər üçün hazırlanan qida məhsulları**" sözləri ilə əvəz edilmişdir.

[14] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 1.5-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.5. Pəhriz qida məhsulları dedikdə profilaktiki və müalicəvi məqsədlər üçün istifadə edilən xüsusi qida məhsulları nəzərdə tutulur.~~

[15] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 2-ci hissəsinin mətnində, 3-cü hissəsinin mətnində və adında, 4.1-ci bənddə ismin müvafiq hallarında "**pəhriz qida məhsulları**" sözləri ismin müvafiq hallarında "**tibbi məqsədlər üçün hazırlanan qida məhsulları**" sözləri ilə əvəz edilmişdir.

[16] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 4.1-ci bənddə **"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsi**" sözləri **"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsi**" sözləri ilə əvəz edilmişdir.

[17] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 4.1.1-ci yarımbənddə "**Pəhriz**" sözü "**Tibbi məqsədlər üçün hazırlanan qida**" sözləri ilə əvəz edilmişdir.

[18] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 4.1.6-cı yarımbənddə "**pəhriz məqsədli**" sözləri "**tibbi məqsədlər üçün hazırlanan**" sözləri ilə əvəz edilmişdir.

[19] 24 iyun 2023-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz

qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 4.1.10-cu yarımbənddə "**saxlanılması**" sözü "**yararlılıq**" sözü ilə əvəz edilmişdir.

[20] 24 iyun 2023-cü il tarixli **35** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 1 nömrəli əlavə - "Pəhriz qida məhsullarının tərkibinə daxil edilməsinə icazə verilən maddələrin siyahısının", 2 nömrəli əlavə - "Körpələr üçün nəzərdə tutulan pəhriz qida məhsulları üçün vitamin və mineralların miqdarı"nın, 3 nömrəli əlavə – "Körpələr üçün nəzərdə tutulmuş pəhriz qida məhsulları istisna olmaqla, digər pəhriz qida məhsulları üçün vitamin və mineralların miqdarı"nın, 4 nömrəli əlavə - "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"nın, 5 nömrəli əlavə - "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"nın adında və mətnində "**Pəhriz**" sözü "**Tibbi məqsədlər üçün hazırlanan**" sözləri ilə və "**pəhriz**" sözü "**tibbi məqsədlər üçün hazırlanan**" sözləri ilə, əvəz edilmişdir.

[21] 24 iyun 2023-cü il tarixli **35** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 2 nömrəli əlavə - "Körpələr üçün nəzərdə tutulan pəhriz qida məhsulları üçün vitamin və mineralların miqdarı"nın adında "**pəhriz qida məhsulları üçün**" sözləri "**tibbi məqsədlər üçün hazırlanan qida məhsulları üzrə**" sözləri ilə əvəz edilmişdir.

[22] 24 iyun 2023-cü il tarixli **35** nömrəli Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyası Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202306240035, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 11 iyul 2023-cü il)** ilə "Pəhriz qida məhsullarına dair sanitariya normaları və qaydaları"n 2 nömrəli əlavə - Körpələr üçün nəzərdə tutulan pəhriz qida məhsulları üçün vitamin və mineralların miqdarı"nın 3-cü qeydində "**pəhriz**" sözü "**tibbi məqsədlər üçün hazırlanan**" sözləri ilə əvəz edilmişdir.